# Kimya, neftkimya və neft emalı istehsalatlarının quraşdırma layihələndirilməsinin əsasları

| | |
|---|---|
| Fənn: | İstehsalatda quraşdırma layihələndirilməsinin əsasları |
| Səviyyə: | Baza, ümumi əsaslar |
| Müddət: | 5 gün |
| Təlimatçı: | MQ şöbəsinin rəisi Afaq İsmayılova |

Bu intensiv 5 günlük baza kursları İstehsalatda quraşdırma layihələndirilməsinin əsaslarını özündə cəmləyir.

Tədris edilən mövzular neft emalı sənayesində texnoloji prosesdə istifadə olunan boru kəmərləri, boru armaturu və müxtəlif avadanlıqların borulanması haqqında kursu əhatə edir.

Kursun iştirakçıları texnoloji boru kəmərləri, boru armaturu və müxtəlif avadanlıqların borulanması barədə zəruri bilikləri və ümumi əsasları öyrənib əldə edəcəklər.

**Nəzərdə tutulur:**

Bu sahədə çalışan mühəndis və texniklər üçün nəzərdə tutulur.

**Öyrəniləcək material**

- Boru kəmərlərinin təyinatı və qoyulma üsulları;
- Boru kəmərlərinin şərti diametri, şərti və sınaq təzyiqi, mühitin işçi parametrləri;
- Boru kəmərlərinin təsnifatı;
- Boru kəmərləri armaturunun tipləri;
- Boru kəmərləri armaturunun növləri;
- Bağlayıcı armatur;
- Avadanlığın borulanması;
- Tutum avadanlığı, istidəyişdirici aparatlar, distillə kolonları, nasoslar;
- Boru kəmərləri armaturunun borulanması.

**Kursun tərkibi:**

- Boru kəmərlərinin seçilməsinə qoyulan tələblər;
- Boru kəmərləri armaturunun növləri haqqında məlumat;
- Müxtəlif tipli avadanlığın borulanma üsulları;
- Boru kəmərləri armaturunun borulanma üsulları.

**Tədrisi aparan təlimatçı haqqında:**

Afaq Mustafa qızı İsmayılova Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 40 ildən artıq neft emalı sənayesində istehsalatların mexaniki-quraşdırma layihələndirilməsində təcrübəyə malikdir.

Əmək fəaliyyəti: 1974-cü ildən 2014-cü ilə qədər mexaniki-quraşdırma şöbəsində cizgiçi, mühəndis, qrup rəisi, layihənin baş mühəndisi vəzifələrində çalışıb. Hazırda mexaniki-quraşdırma şöbəsinin rəisidir.

İşlədiyi illər ərzində Azərbaycan, Rusiya və Orta Asiya respublikalarının ərazisində yerləşən neft emalı müəssisələrinin bir çox obyektlərinin layihələndirilməsində fəal iştirak edib. Son illər "Azərneftyağ" NEZ, Qaradağ qaz emalı zavodu, Kulevi "Qara dəniz terminalı", Heydər Əliyev adına NEZ və digər obyektlərin layihələndirilməsində iştirak edir.

**Kursun keçirilmə yeri:**
"Neftqazelmitədqiqatlayihə" İnstitutu

Bütün kurslar inn daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.

Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

"Neftqazelmitədqiqatlayihə" İnstitutu
AZ 1012, Bakı şəhəri, H. Zərdabi pr.88a